# Arzusu Milli Konservatoriyanın tələbəsi olmaqdır

...Bu dilli-dilavər qızın 11 yaşı var. Adı Zəminə, soyadı Kərimovadır. 2005-ci ildə Bakıda anadan olub. Türk Dünyası Araşdırmaları Vakfı Bakı Atatürk liseyinin 5-ci sinif şagirdidir. İstedadlı yeniyetmədə fortepiano ixtisasına həvəs hələ uşaq yaşlarından yaranıb. Hazırda Zəminə Kərimova musiqi təhsilinə dərindən yiyələnir. O, paytaxtdakı R.Hacıyev adına 15 nömrəli onbirillik musiqi məktəbinin fortepiano şöbəsində, Tamilla Məmmədovanın sinfində təhsil alır. Yeniyetmə qız ilk uğuruna 2015-ci ildə imza atıb. O, Estoniyanın Narva şəhərində keçirilən İ.S. Bax adına Beynəlxalq müsabiqədə iştirak



edərək laureat adını qazanıb. Həmin il Bolqarıstanda keçirilən musiqi festivalından qələbə ilə qayıdıb. Uğurları artdıqca seçdiyi bu sənətə həvəsi daha da artır, qazandığı nailiyyətlər onu daha səylə çalışmağa həvəsləndirir. Zəminə 2016-cı ilin yanvarında İspaniyanın Lioret De Mar şəhərində "Gran Fiesta" musiqi festivalına da qatılaraq II dərəcəli diplomla mükafatlandırılıb.

İstedadlı yeniyetmə asudə vaxtlarından səmərəli istifadə edir. Məktəb kitabxanasının üzvüdür. Çoxlu bədii ədəbiyyat oxuyur, mütaliəni çox sevir. Milli və dünya xalqlarının rəqslərini məharətlə ifa etməyi bacarır. Amma vaxtının çox hissəsini fortepianoda ifa etməyə sərf edir. "Yaxşı musiqiçi olmaq üçün çox çalışmaq, məşq etmək, oxumaq lazımdır",- söyləyir. Gələcəkdə isə Milli Konservatoriyanın fortepiano şöbəsinə daxil olmaq arzusu ilə yaşayır.